# QARABAĞDA NƏLƏR GÖRDÜM?!



*Əsədulla CƏFƏROV,*
*Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu tarix elmləri doktoru, professor*

*2021-ci il martın 17-də saat 03:17 dəqiqədə ARB-24 televiziya şirkətinin əməkdaşları Gündüz, Feyruz və Qəni ilə birlikdə "Jurnalistlər Prezidentin izi ilə" adlı mediaturda 44 gün ərzində vətən müharibəsi nəticəsində Azərbaycan respublikasının prezidenti, Ali Baş komandan İlham Əliyevin müdrik rəhbərliyi altında, cəsur, ləyaqətli, şöhrətli, mənəviyyatlı qəhrəman əsgərlərimizin şücaəti sayəsində Qarabağın erməni terrorçularından azad olunmuş Füzuli, Xocavənd, dünya şöhrətli Azıx paleolit düşərgəsi və Hadrut şəhərlərinə yola düşdük. Səhər saat 07:35 dəqiqələrdə Füzulinin İdman mərkəzinə çatdıq və səfərə başladıq. Burada dünya tarixində görülməmiş vəhşiliklərin qurbanı olan bina qalıqlarını, daşlarını, xarabalıqlara çevrilmiş şəhər, kəndləri, müqəddəs məscid və məbədlərin, xaraba qalmış qəbiristanlıqları görüb göz yaşlarımı saxlaya bilmədim. Mən, 1969-1987-ci illərdə Qarabağın həm dağlıq, həm də aran hissələrini qarış-qarış gəzib arxeoloji kəşfiyyat və tədqiqat işləri aparmışam. 19 saat ərzində Qarabağın işğaldan azad olunmuş ərazilərini gəzdikdən sonra dəhşətə gələrək Bakıya qayıtdım. 19 sutka gecə və gündüz yata bilmədim və "Qarabağda nələr gördüm" adlı 11-ci kitabı yazmağa başladım...*

**Qarabağda nələr gördüm?!**

Erməni vandalların viran qoyduğu şəhərlər, kəndlər gördüm.
Qarabağda nələr gördüm?!
Erməni terrorçuların xarabazara çevirdiyi məbədlər, məscidlər,
istehkamlar gördüm.
Qarabağda nələr gördüm?!
Erməni goreşənlərinin
qədim qəbiristanlıqları
talan etdiklərini gördüm.
Qarabağda nələr gördüm?!
Qəbiristanlarda insan kəllə və
çənələrinin doğram-doğram
olduğunu gördüm.
Qarabağda nələr gördüm?!
Xarabazara çevrilmiş karvansaralar,
kökləri kəsilmiş ağacların
çürük köklərini gördüm.
Qarabağda nələr gördüm?!
Viran qalmış Azərbaycan məktəblərini,
Tarix-diyarşünaslıq muzeylərini gördüm.
Qarabağda nələr gördüm?!
Alban kilsələrinə vurulmuş
saxta yamaqlar gördüm.
Qarabağda nələr gördüm?!
Viran qalmış evlər gördüm.
Qarabağda nələr gördüm?!
Azərbaycanın qəhrəman əsgərlərinin
qan izlərini gördüm.
Qarabağda nələr gördüm?!
Ermənilərin vandal əməllərini gördüm.
Qarabağda nələr gördüm?!
Füzuli-Şuşa zəfər yolunu gördüm.
Qarabağda nələr gördüm?!
Xarabazara çevrilmiş
karvansaralar gördüm.
Qarabağda nələr gördüm?!
Füzuli-Hadrut yolunda müqəddəs
işlərin getdiyini gördüm.
Qarabağda nələr gördüm?!
Qayalar üzərində həkk olunmuş üçrəngli
Azərbaycan bayrağını gördüm.
Qarabağda nələr gördüm?!
Zəfər yolunu gördüm.
Qarabağda nələr gördüm?!
"Azərişıq"ın zəhmətkeş insanlarının
işlədiklərini gördüm.
Qarabağda nələr gördüm?!
Son 33 ildə şəhid olmuş
insan ruhlarını gördüm.
Qarabağda nələr gördüm?!
Kütləvi məzarlıqlar gördüm.
Qarabağda nələr gördüm?!
Azıxı gördüm.
Qarabağda nələr gördüm?!
İşıqlı gələcəyə yol çəkən
Azərbaycan insanını gördüm.
Qarabağda nələr gördüm?!
Azərbaycan əsgərinin
xidmət etdiyini gördüm.
Qarabağda nələr gördüm?!
Azıx paleolit düşərgəsinin
viran qaldığını gördüm.
Qarabağda nələr gördüm?!
Anaların fəryadını gördüm.
Qarabağda nələr gördüm?!
İşıq gördüm, gələcəyə ümid gördüm.
Qarabağda nələr gördüm?!
Azərbaycan tarixinin
əzəmətli illərini gördüm.
Qarabağda nələr gördüm?!
Viran qalmış ocaqları gördüm.
Qarabağda nələr gördüm?!
Azərbaycan xalqının, dövlətinin
əzəmətli quruculuq işlərini gördüm.
Qarabağda nələr gördüm?!
Bəşəriyyətə səslənmiş səslər eşitdim.
-Ey insanlar ağıla gəlin!
Müharibələrə son qoyun!
Haqsız yerə günahsız insanların
qanını tökməyin!
Qarabağda nələr gördüm?!
Son 33 ildə erməni quldurlarının
vandal əməllərini gördüm.
Qarabağda nələr gördüm?!
Qarabağda işıqlı gələcək gördüm,
inkişafa gedən yollar gördüm,
əzəmət gördüm, ruh gördüm,
fərəh gördüm.
Qarabağda nələr gördüm?!
Şəhid olmuş əsgərlərin
qan izlərini gördüm.
Qarabağda nələr gördüm?!
Ali Baş Komandan
İlham Əliyevin
ayaq izlərini gördüm.
Qarabağda nələr gördüm?!
Azıx düşərgəsinə erməni vandallarının
vurduğu yaraları gördüm.
Qarabağda nələr gördüm?!
Azıx düşərgəsində məskunlaşmış
ulu sakinlərin sevinclərini gördüm.
Qarabağda nələr gördüm?!
Azərbaycan oğullarının
quruculuq işlərini gördüm.
Qarabağda nələr gördüm?!
Füzuli şəhərində təyyarə limanının
tikintisini gördüm!

*Ardı var...*

**07.10.2021-ci il.**